MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 3, № 1, 2023*

UOT 330.34

# MİLLİ İQTİSADİYYATIN SOSİAL-İQTİSADİ CƏHƏTDƏN DAVAMLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİNİN REGİONAL ASPEKTLƏRİ

**Günel Fazil qızı Kərimli**
Mingəçevir Dövlət Universiteti
gunel.karimli@mdu.edu.az

***Xülasə:*** *Məqalədə milli iqtisadiyyatın sosial-iqtisadi inkişafı baxımından davamlı inkişaf konsepsiyasının meydana gəlməsi izah olunmuş və ölkədə davamlı inkişafın təmin edilməsinin əsas şərtləri aydınlaşdırılmışdır. Məqalədə davamlı inkişaf problemləri, regionların sosial-iqtisadi inkişaf məsələləri kompleks şəkildə nəzərdən keçirilmişdir. Müəllif ölkədə regionların sosial-iqtisadi inkişafının davamlı inkişafın təmin olunmasına müsbət təsirlərini təhlil edərək, Azərbaycanın milli iqtisadiyyatının təhlükəsizliyinin, onun rəqabət qabiliyyətinin və ən başlıcası isə davamlı inkişafının təmin edilməsinin əsas şərtlərindən biri olduğunu əsaslandırmışdır. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də davamlı inkişafı üçün möhkəm zəmin yaratmışdır.*

*Araşdırmaların nəticəsi kimi, milli iqtisadiyyatın davamlı inkişafı sürətli regional inkişafın müəyyən bir mərhələsidir. Başqa sözlə desək, nəticə etibarilə, regional inkişaf məhz ölkənin davamlı inkişafının təmin edilməsi ilə mümkündür.*

***Açar sözlər:*** *milli iqtisadiyyat, konsepsiya, davamlı inkişaf, regional siyasət, potensial, rəqabət*

## Giriş

Qloballaşan müasir dövrdə Azərbaycanın milli iqtisadiyyatının bütün sferaları və sahələri üzrə dinamik, sürətli və davamlı inkişafı üçün işgüzar fəaliyyətin normativ-hüquqi, təşkilati və maliyyə təminatının yüksəldilməsi baxımından zəruri olan möhkəm zəmin yaradılmışdır. O cümlədən, regionların inkişafı və regionların iqtisadi potensiallarından səmərəli istifadə edilməsi hazırda respublikamızın iqtisadi inkişafının prioritetlərindən biri hesab edilir.

Hazırda regional, qlobal və beynəlxalq miqyasda sabit iqtisadi inkişafın təmin edilməsi və ətraf mühitin qorunması istiqamətində həyata keçirilən siyasətlərin başlıca strategiyası Davamlı İnkişaf Konsepsiyasıdır. Davamlı inkişaf anlayışı əksər ədəbiyyatlarda daha çox ətraf aləmin mühafizəsi və təbii resurslardan səmərəli istifadə ilə bağlı olan bir inkişaf yolu kimi şərh edilir. Bu baxımdan ətraf mühitin qorunması dedikdə, cəmiyyət-təbiət qlobal sistemində özü-özünü tənzim edən davamlı, sabit inkişaf başa düşülür. Eyni zamanda, davamlı inkişaf konsepsiyası iqtisadi və ekoloji inkişafın qarşılıqlı bağlılığını əsas götürən bir strategiyadır [5].

Azərbaycanın bu gün özünün ərazi bütövlüyünü təmin etmiş müstəqil dövlət kimi, şəriksiz sahibi olduğu bütün təbii sərvətləri, milli iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafının təmin edilməsi məhz gələcək dövr üçün regional inkişaf siyasətinin xarakterindən və onun reallaşdırılmasının səmərəliliyindən asılıdır. Belə ki, regional inkişaf çoxşaxəli, sistemli və mürəkkəb bir proses kimi nəinki iqtisadi rayonlarda məhsul və xidmət buraxılışının, gəlirlərin həcminin artımının, eləcə də regionlarda müvafiq olaraq institusional dəyişikliklərin həyata keçirilməsini, istehsal strukturlarının yenidən qurulmasını, habelə davamlı insan resurslarının inkişafına nail olunması konsepsiyasının tələblərinə əsasən bu ərazidə yaşayan insanların iqtisadi təfəkkürü, adət və ənənələri, habelə həyat tərzində də əsaslı keyfiyyət dəyişikliklərinin baş verməsinə zəmin yaradır. Belə ki, regionları inkişaf etdirmədən, müəssisələrdə müasir texnologiyanın tətbiqinə nail olmadan ətraf mühitin etibarlı mühafizəsini təşkil etmək mümkün deyildir. Davamlı inkişafın əsas təminatçılarından biri regional inkişafa nail olmaqdır. Respublikamızda davamlı inkişafın təmin edilməsi və regionların inkişafı biri-biri ilə sıx bağlı olmaqla biri digərini tamamlayır.

Bütün bu mütərəqqi proseslərin reallaşdırılması son nəticədə Azərbaycanın rayonlarının hər birinin malik olduğu özünəməxsus təbii, maddi, əmək resurslarından, coğrafi, nəqliyyat informasiya-kommunikasiya imkanlarından istifadənin səmərəliliyi, məşğulluq səviyyəsinin və həyat səviyyəsinini yüksəltməsinə şərait yaratmaqla ümumən, milli iqtisadiyyatın sürətli inkişafına zəmin yaradacaqdır.

O da məlumdur ki, sovet dövründə Azərbaycanda regionların inkişafı, əsasən, keçmiş SSRİ-nin əmək bölgüsünə uyğun həyata keçirildiyindən, strateji baxımdan ölkə iqtisadiyyatının inkişaf etdirilməsini məhdudlaşdırmışdı. Sovetlər dönəmində Azərbaycan keçmiş ittifaqın regionlarından biri hesab edilirdi və o zaman regional inkişaf dedikdə, əsas etibarı ilə bütövlükdə Respublikanın inkişafı nəzərdə tutulurdu. Bu səbəbdən də, ayrı-ayrı rayon və ya iqtisadi rayonların inkişafına, müasir dövrə nisbətən, məhdud çərçivədə yanaşılırdı.

Dövlət müəssisələri keçmiş ittifaqın təsərrüfatçılıq sistemində daim dövlət tərəfindən dəstəkləndiyinə görə, daxili bazarın dəyişən konyukturuna çevik şəkildə adaptasiya olmaq imkanına malik deyildi. Bu isə həmin subyektlərin rəqabət bazarının subyekti kimi çıxış etməsinə mənfi təsir göstərirdi.

Ölkəmizin müstəqil dövlətə çevrilməsi, bazar sisteminə keçməsi regionların səmərəli inkişafının təmin edilməsinin prinsiplərini, hərəkətverici qüvvələrini və meyarlarını əsaslı dəyişikliyə uğratsa belə, regional iqtisadi siyasətə və sosial-iqtisadi inkişafa ölkəmizdə əvvəllər lazımı diqqət yetirilməmiş və ümumi inkişaf baxımından regionlar əhəmiyyətli dərəcədə bir-birindən fərqlənirdi. Araşdırmalara əsasən Azərbaycan Respublikasında müstəqillikdən sonra regionların sosial-iqtisadi inkişafının təmin edilməsi məsələsi daim aktual problem olmuşdur. Prezident İlham Əliyev tərəfindən 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram"ları ölkəmizin hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevrilməsində regionların proporsional inkişafının təmin olunmasında, geri qalmış regionların inkişafında və əsasən də əhalinin yaşayış tərzinin yaxşılaşdırılmasında təməl proqram kimi qiymətləndirilə bilər [3].

Dövlət proqramının əsas məqsədi isə ölkəmizin iqtisadi rayonlarında mövcud resurslardan səmərəli istifadəni təmin etməklə, iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, idxalı ixracla əvəz edən məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafına, əhalinin rifah səviyyəsinin daha yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin artmasına və ölkə iqtisadiyyatnın dinamik inkişafına nail olmaq idi [4].

Dövlət Proqramları əsasında aşağıdakı müvafiq tədbirlər planı müəyyənləşdirilmişdir:

- ölkə əhəmiyyətli tədbirlər;
- Bakı şəhərinin rayon və qəsəbələri üzrə tədbirlər;
- ölkənin iqtisadi rayonları səviyyəsində həyata keçirilən tədbirlər [6].

Tədqiqatlara əsaslanaraq qeyd etmək olar ki, ölkəmizin regionlarının inkişafı məhz ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının vacib tərkib hissəsi kimi regionların inkişafı sahəsində müvəffəqiyyətlə həyata keçirilmiş dövlət proqramları, qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, investisiya qoyuluşunun yüksəlməsinə, yeni müəssisələrin, iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır [1].

Regional inkişaf məhz ölkənin sosial-iqtisadi inkişaf siyasətinin əsas tərkib hissəsi kimi bütövlükdə həmin siyasətin həyata keçirilməsinə xidmət edir. Belə ki, regional inkişaf siyasəti bir çox özünəməxsus xüsusiyyətlərinə görə sosial-iqtisadi inkişaf siyasətinin pul-kredit, sosial, ekoloji, aqrar siyasət və s. tərkib hissələrindən fərqlənir. Belə ki, regional inkişaf siyasəti məhz ölkənin

sosial-iqtisadi inkişaf siyasətinə uyğun olaraq həyata keçirilir. Başqa sözlə, ölkə miqyasında qarşıya qoyulan həlli mühüm məsələlər, habelə region miqyasında da qarşıya qoyularaq yerinə yetirilir. Sosial-iqtisadi inkişaf siyasətinə görə regional sosial-iqtisadi inkişafın yerinə yetirilməsi daha mürəkkəbdir. Belə ki, regional inkişaf siyasətinin həyata keçirilməsinə ölkə miqyaslı amillər, habelə hər bir regionun konkret şəraiti və iqtisadi potensialı təsir edir. Ölkənin ümumi sosial-iqtisadi inkişaf siyasətinin uğuru regional inkişaf siyasətinin uğurundan, eləcə də regional inkişafın uğurla həyata keçirilən ərazi struktur siyasətindən çox asılıdır [2].

Hazırda qloballaşan müasir dünyada Azərbaycan Respublikasında milli iqtisadiyyatın inkişaf istiqamətləri kimi investisiya və mərkəzləşdirilmiş kapital qoyuluşları, azad sahibkarlığın sürətli inkişafı və həmçinin geniş beynəlxalq inteqrasiya müəyyən edilir. Belə ki, milli iqtisadiyyatın hərtərəfli yüksəlişi baxımından respublikanın ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişafının yeni tələblərə uyğun səviyyədə qurulması ən aktual problemlərdən hesab edilir. Regionun resurs təminatı, insan amili, sənaye potensialı və ərzaq təhlükəsizliyi və s. kimi problemlər bu kompleks davamlı inkişaf baxımından həyata keçirilən işlərin əsas məzmununu müəyyən edir.

Regional siyasətin əsas məqsəd və vəzifələrinə uyğun milli iqtisadiyyatın və həmçinin hər bir regionun ayrı-ayrılıqda mövcud iqtisadi vəziyyəti, sosial şəraiti, resurslar balansı, ondan istifadə dərəcəsi, habelə müasir dövrdə hərəkətə gətirilə bilən potensial imkanlar nəzərə alınmalıdır. Regionların malik olduğu real potensialı onun dinamik inkişafına zəmin yaratmaqla bütünlükdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsinə güclü təkan verə bilər.

Ölkəmizdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi regionların sosial-iqtisadi inkişafı ilə bilavasitə bağlıdır. Belə ki, regionların iqtisadiyyatının daxili rəqabət qabiliyyətinin təmin edilməsi hər bir iqtisadi rayonun ərazisinin malik olduğu resurslar balansının xarakterindən əhəmiyyətli dərəcədə asılıdır. Ölkəmizdə regionların iqtisadi inkişaf səviyyəsinin sistemli təhlilinə əsasən, bu gün ölkənin heç bir regionu bir neçə amillər üzrə rəqabət üstünlüyünə malik deyildir. Regionların sosial-iqtisadi inkişafı baxımından ayrı-ayrı iqtisadi zonalar bu problemin həllinə sistemli və kompleks yanaşılma inkişafa təkan verə bilər.

Davamlı inkişaf konsepsiyasının əsas strateji məqsədi elmi-texniki tərəqqinin geniş tətbiqi əsasında gələcək nəsillərin tərəqqi imkanlarının reallaşdırılması üçün tələb olunan potensial resursların səmərəli və optimal nisbətdə hərəkətə gətirilməsini nəzərdə tutur.

Uzunmüddətli davamlı inkişafın təmini hər şeydən öncə onun perspektiv qiymətləndirməsini tələb edir. Buraya bərpa olunan təbii resursların kəmiyyəti, bərpa olunmayan təbii resursların artım tempinin kəskin aşağı düşməsi, resurslara qənaət texnologiyalarının tətbiqi nəticəsində tullantıların minimuma endirilməsi və resurs vahidində maksimum son nəticədə əldə olunması, ətraf mühitin çirkləndirilməsi, iqtisadi və sosial cəhətdən yol verilə bilən həddə saxlanması və s. aiddir.

Qeyd olunanlar hər şeydən əvvəl ölkənin əsas makroiqtisadi göstərici hesab edilə biləcək ÜDM-in son illər yüksək artım sürəti ilə şərtlənir. Belə ki, statistik məlumatların təhlilindən aydın olur ki, 2018-ci ildə Azərbaycanda ümumi daxili məhsulun 1,5 %, 2019-cu ildə 2,5 % artım, əksinə 2020-ci ildə isə 4,2 % azalma müşahidə olunmuş, proqnoz materiallarına görə əminliklə demək olar ki, 2021-ci ildə bu əsas göstərici 5,6 % artımla müşahidə olunmuşdur. Ümumiliklə, 2017-2021-ci illərdə ÜDM 1,3 dəfə artmışdır (cədvəl 1).

Pandemiya və vətən müharibəsi keçmiş ölkə olaraq son beş illik göstəricini yüksək göstərici hesab etmək olar.

**Cədvəl 1**

**2017-2021-ci illər üzrə Azərbaycan Respublikasının əsas makroiqtisadi göstəriciləri mln.manatla**

| **İllər** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|
| ÜDM bazar qiymətləri ilə | 70337,8 | 80092,0 | 81896,2 | 72578,1 | 92857,7 |
| Qeyri-neft sektoru, ÜDM, bazar qiymətləri ilə | 40 328,0 | 41 662,0 | 44 481,8 | 45 312,2 | 51 082,9 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Neft sektoru, ÜDM, bazar qiymətləri ilə | 25 005,4 | 32 231,7 | 30 051,9 | 20 417,5 | 33 930,6 |

**Qeyd:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir (www.stat.gov.az)

Habelə iqtisadi artımın yüksək və dinamik inkişafının təmin edilməsində ölkə iqtisadiyyatına yönəldilən investisiyalar mühüm əhəmiyyət kəsb edir. 2003-2021-ci illərdə ölkədə yaradılmış investisiya mühitinin İlham Əliyevin prezidentliyi dövründə daha da əlverişli və keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, son 18 ildə respublikamızın investisiya cəlbediciliyinin artmasına hesablanan güclü hüquqi bazanın yaradılması, habelə onların təşviqinin genişləndirilməsi nəticəsində 2022-ci ildə nisbətən respublika iqtisadiyyatına qeyri-neft-qaz sektoruna yönəldilən sərmayələrin həcminin 14,6 faiz artması eyni zamanda, əsas kapitala yönəldilmiş investisiyaların 7665,6 milyon manatını və ya 75,5 faizini daxili vəsaitlər təşkil etmişdir.

Fikrimizcə, 29 yanvar 2019-cu ildə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafının növbəti Dövlət Proqramının son üç illik nəticələri birmənalı belə nəticəyə gəlməyə tam əsas verir ki, bu proqram istər iqtisadi, sosial, texniki, eləcə də təşkilati-hüquqi baxımdan ölkəmizin regionlarının davamlı sosial-iqtisadi inkişafı naminə uğurla həyata keçirilən elmi və praktiki baxımdan tam əsaslandırılmış və perspektivə istiqamətlənmiş çox mükəmməl bir sənəd kimi qiymətləndirilməlidir.

Son illərdə Azərbaycanın iqtisadi inkişafının sosial yönümü daha da güclənir. Belə ki, 2003-cü ildən 18 il ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə, regionların inkişafı ilə birbaşa bağlı olan kənd təsərrüfat xərcləri 2 dəfə, sənaye istehsalı 2,7 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə, valyuta ehtiyatları 27 dəfə, minimum əmək haqqı 11 dəfə, orta pensiya 8 dəfə, sosial müdafiə və sosial təminat xərcləri 2 dəfə artmışdır.

Araşdırmalar göstərir ki, regionların sosial-iqtisadi inkişafı imkanları əhəmiyyətli dərəcədə onların inkişafına yönəldilən vəsaitlərinin həcmi və strukturu ilə bağlıdır. Təhlillər göstərir ki, 2003-2021-ci illərdə ÜDM-un sürətli artımı bir qayda olaraq onun strukturunda büdcənin gəlir və xərclərinin artması ilə müşahidə olunmuşdur. Son üç ildə ÜDM-in artımına öz müsbət təsiri ilə fərqlənmiş, ÜDM-in təxminən 70 %-ni təşkil edən qeyri-neft sahələri cari ilin baxılan dövründə illik qiymətləndirmədə 2,3 % azalmış, istehsal olunan əlavə dəyərin azalması ÜDM-in azalmasına 1,4 % bəndi azaldıcı təsir göstərməsi yeni növ koronavirus infeksiyasının yayılmasına yol verməmək məqsədilə tətbiq olunan sərt karantin rejiminin tətbiq edilməsinin təsiri nəticəsində baş vermişdir.

Regionlarda iqtisadi inkişafın təmin edilməsində rayonlar səviyyəsində əmtəə, material, xammal, maliyyə və əmək resurslarının sistemli idarə olunması ilə yanaşı hüquqi tənzimləmə mexanizminin formalaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, bu gün regionlarda davamlı inkişafın təmin edilməsində istehsal olunmuş kənd təsərrüfatı məhsullarının səmərəli reallaşdırılması prioritet məsələlərdəndir. Milli iqtisadiyyatın davamlı inkişafı konsepsiyasına və strategiyasına uyğun olaraq istehsalın səmərəliliyinin yüksəldilməsi, kənd ərazilərinin sosial-iqtisadi cəhətdən inkişaf etdirilməsi, əlavə dəyər yaradan yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi, qiymət və gəlirlərin tənzimlənməsi mexanizminin formalaşdırılması sosial-iqtisadi aspektlərinin mühüm bir amil kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikası üçün regional siyasət, xüsusilə vacib əhəmiyyət daşımaqla ölkə ərazisinin təbii-coğrafi, sosial-demoqrafik, iqtisadi və digər sahələrdə mövcud olan fərqli mənzərini nəzərə alaraq regionlara unifikasiyalı yanaşmaq mümkün deyildir. Qeyd edilən fərqli mənzərə, eyni zamanda iqtisadiyyatın aparıcı sahələrinin regionlar üzrə yerləşməsində də fərqlərin yaranmasına səbəb olmuşdur. Statistik araşdırmalar da göstərir ki, ayrı-ayrı regionlar sənaye, kənd təsərrüfatı və s. mühüm sahələrdə istehsal edilən məhsulların miqdarına görə biri-birindən fərqlənir. İqtisadiyyatın aparıcı sahələri üzrə müxtəlif regionların xüsusi çəkisi cədvəl 2-də verilmişdir.

Qeyd edilənlərə əsasən ölkə iqtisadiyyatının əsas sahələri üzrə məhsul buraxılışı ilə ayrı-ayrı regionlarının göstəricilərinə nəzər saldıqda məlum olur ki, 2017-ci illə müqayisədə 2021-ci ildə

Bakı şəhəri 5,5 %, Gəncə-Daşkəsən 8,4 % azalmış, habelə Lənkəran-Astara, Mərkəzi Aran, Şirvan Salyan iqtisadi rayonlarda da azalma nəzərə çarpmaqdadır. Müqayisə olunan dövr ərzində Abşeron-Xızı iqtisadi rayonunda ən yüksək göstərici 2,6 dəfə artım, habelə Qarabağ və Şərqi Zəngəzurda artım müşahidə olunmuşdur.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında iqtisadiyyatın aparıcı sahələri üzrə məhsul buraxılışında ayrı-ayrı regionların xüsusi çəkisi (%-lə)**

| İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2017-ci illə müqayisədə 2021-ci ildə, faizlə |
|---|---|---|---|---|---|---|
| Bakı şəhəri | 109,2 | 108,9 | 107,6 | 98,8 | 103,3 | 94,5 |
| Naxçıvan | 101,1 | 101,1 | 101,3 | 101,2 | 101,1 | - |
| Abşeron-Xızı | 2,9 | 3,5 | 6,0 | 7,0 | 6,0 | 2,6 dəfə |
| Dağlıq Şirvan | 1,0 | 1,0 | 1,2 | 1,1 | 0,9 | 90,0 |
| Gəncə-Daşkəsən | 2,4 | 2,1 | 2,1 | 2,6 | 2,2 | 91,6 |
| Şəki-Zaqatala | 2,0 | 1,9 | 2,1 | 2,5 | 1,8 | 90,0 |
| Lənkaran-Astara | 2,4 | 2,2 | 2,0 | 2,2 | 1,9 | 79,1 |
| Quba-Xaçmaz | 2,1 | 2,0 | 2,4 | 2,5 | 2,1 | - |
| Mərkəzi Aran | 2,8 | 2,5 | 2,8 | 3,0 | 2,4 | 85,7 |
| Qarabağ | 1,9 | 1,8 | 1,8 | 1,9 | 2,8 | 147,3 |
| Şərqi Zəngəzur | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,9 | 9 dəfə |
| Qazax-Tovuz | 2,3 | 2,2 | 2,6 | 3,0 | 2,4 | 104,3 |
| Mil-Muğan | 1,9 | 1,8 | 2,0 | 2,1 | 1,9 | - |
| Şirvan Salyan | 2,4 | 2,5 | 2,6 | 2,6 | 2,1 | 87,5 |
| **Respublika üzrə cəmi:** | **100,0** | **100,0** | **100,0** | **100,0** | **100,0** | |

**Qeyd:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir (www.stat.gov.az)

İqtisadiyyatın əsas sahələri (kənd təsərrüfatından başqa) geniş sosial infrastruktur şəbəkəsi olan mərkəzdə cəmlənmişdir ki, bu da regional inkişafa mane olur. Regionlardakı mövcud ehtiyatları, bir çox spesifik xüsusiyyətləri və iqtisadi inkişafdakı fərqləri, qeyd edilənlərlə əlaqədar regionlarda sahibkarlığın inkişaf xüsusiyyətlərini və meyllərini araşdırmaq, bölgələr arasındakı iqtisadi inkişafda tarazlılığı təmin etmək və regionların davamlı sosial-iqtisadi inkişafına nail olmaq xüsusi əhəmiyyət kəsb edir.

Regional iqtisadiyyatda iqtisadi artımın əhalinin həyat səviyyəsinin rifahının yüksəldilməsi, bir sıra sahələrdə böyük xərc tələb edir ki, bu da elmi-texniki problemlərin kompleks həlli üçün müəyyənləşdirilir [3].

Göstərmək kifayətdir ki, ölkənin sosial-iqtisadi inkişafı yönümündə məqsədyönlü prioritetlər 2004-2018-ci illər ərzində 1,5 milyonu daimi olmaqla, 2 milyondan artıq yeni iş yeri yaradılmışdır ki, bu iş yerlərinin də 75 faizi regionların payına düşmüşdür. Yeni iş yerlərinin açılması insanların həyat səviyyəsinin yüksəldilməsi ilə yanaşı, yeni istehsal güclərinin, infrastrukturun yaradılması bütünlükdə milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsinə çox müsbət təsir göstərmişdir. Habelə ölkə üzrə məqsədyönlü tədbirlər nəticəsində respublikamızda 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Şək. 1-də 2004-2018-ci illər ərzində yeni fəaliyyətə başlamış müəssisələrin sturukturu göstərilmişdir. Yeni yaradılmış müəssisələrə innovativ texnologiyaların tətbiqi nəticəsində istehsal potensialı artırılmış, bu da ölkə

sənayesində 2,6 dəfə real artıma səbəb olmuşdur. Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 2003-cü ildə 56,8 % təşkil edirdisə, hazırda isə 80 faizdən çoxdur [1].




**Şək. 1.** Fəaliyyətə başlamış müəssisələr (2004-2018-ci illər)

Məlumdur ki, regionların inkişafının təmin edilməsində müvafiq nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması mühüm əhəmiyyət kəsb edir. Regionların su ilə təmin olunması və kanalizasiya sistemlərinin yenidən qurulması, o cümlədən 4,2 min km suvarma kanallarının tikintisi, bərpası və yenidən qurulması işləri aparılmış, Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilmiş, 413 min hektar torpaq sahələrinin su təminatı yaxşılaşdırılmış, 2285 subartezian quyusu və sair işlər müvafiq Dövlət Proqramlarına uyğun olaraq ardıcıllıqla davam etdirilmişdir [1].

Davamlı inkişafa zəmin yaradan yeni "avanqard" sahələrin inkişafına köklənməklə, milli iqtisadiyyat qeyri-ticarət sahələrinə nisbətən ticarət sahələrinin, hasilatla müqayisədə emalın, dövlətə nisbətən özəl biznes mühitinin, yüksək texnologiyalara əsaslan sahələrin, yüksək ixtisaslı əməyə əsaslanan sahələrin, yüksəkgəlirli və yüksək dəyər yaradan sahələrin hesabına yenidən bərpa olacaqdır. Milli iqtisadiyyatın müasir inkişafa doğru bərpası sahibkarlığının daha da yaxşılaşdırılmasına, maliyyə-bank sisteminin təkmilləşdirilməsinə, habelə dünya bazarına çıxış imkanlarının genişləndirilməsi ilə mümkün olacaqdır [2].

**Nəticə**

Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının başlıca nəticələri Azərbaycanın ərazi bütövlüyünün bərpası, dayanıqlı iqtisadi artım, beynəlxalq nüfuzunun artırılması, ölkənin iqtisadi potensialının gücləndirilməsi və əhalinin sosial rifah vəziyyətinin əhəmiyyətli yüksəldilməsi baxımından zəmin yaratmışdır. Xüsusilə, ölkəmizin milli və regional inkişafdan hazırda qazandığı naliyyətləri təkcə bugünkü nəticələr baxımından qiymətləndirmək düzgün olmazdı. Belə ki, milli iqtisadiyyatın çoxvektorlu, xüsusən regionların hərtərəfli inkişafı baxımından çox ciddi işlər görülmüş və möhkəm təməl, potensial yaranmışdır. Bütünlüklə Azərbaycanın milli iqtisadiyyatının təhlükəsizliyinin, onun rəqabət qabiliyyətinin ən başlıcası isə davamlı inkişafının təmin edilməsi çox mühüm şərti hesab olunmalıdır.

Beləliklə, müxtəlif təsirlər xüsusilə sosial, iqtisadi və ekoloji istiqamətlər ölkədə davamlı inkişafın təmin edilməsində mühüm rol oynayır. Bütün bunlar bir daha göstərir ki, iqtisadi, sosial və ekoloji aspektlər əhalinin sosial təminatından, ətraf mühitin mühafizəsindən, təbii resurslardan səmərəli istifadə edilməsindən, istehsal edilən məhsulların rəqabət qabiliyyətliliyinin yüksəldilməsindən, ölkədə işsizlik probleminin səmərəli həllindən və s. asılıdır. Eyni zamanda, tədqiqatlar sübut edir ki, regional inkişafın sürətləndirilməsi hər bir regiona məxsus mütləq və nisbi

üstünlüklərinin reallaşdırılması ilə indiki nəslin normal tələbatının ödənilməsinə xidmət edən bütünlükdə milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafında mühüm rol oynayır.

**İstifadə edilmiş ədəbiyyat**

1. "Azərbaycan Respublikası regionlarının (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) sosial-iqtisadi inkişafı Dövlət Proqramı" // Azərbaycan Respublikası Prezidentinin Fərmanları
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" // Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı
3. Məmmədov, M. Regional konseptual inkişaf: iqtisadi-ekoloji problemlər / - Bakı: Elm, 2014. - 375 s.
4. Hüseynov, S. Davamlı inkişafin sosial və fəlsəfi problemləri (kollektiv monoqrafiya) / Rüstəmov, İ., Tağıyev, Ə., Mustafayev, A. – Bakı: Elm və təhsil, 2020. - 312 s.
5. Əliyev, T.Ş. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi / Əliyev, T.Ş., Babayev, L.B.. – Bakı: Elm və təhsil, 2013. - 272 s.
6. Alıyev, İ. Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf / Hüseynov S., Əsədov, A. - Bakı: Avropa, 2012. - 419 s.

## REGIONAL ASPECTS OF PROVIDING SOCIO-ECONOMIC SUSTAINABLE DEVELOPMENT OF THE NATIONAL ECONOMY

**G.Karimli**
Mingachevir State University

***Abstract:*** *In the article, the emergence of the concept of sustainable development in terms of socio-economic development of the national economy is explained and the main conditions for ensuring sustainable development in the country are clarified. In the article, the problems of sustainable development and the socio-economic development of the regions were comprehensively reviewed. Analyzing the positive effects of socio-economic development of regions in the country on ensuring sustainable development, the author justified that the security of Azerbaijan's national economy, its competitiveness and, most importantly, one of the main conditions for ensuring its sustainable development. Large-scale works carried out within the framework of state programs have created a solid foundation for the sustainable development of the regions in the coming years.*

*As a result of the research, the sustainable development of the national economy is a certain stage of rapid regional development. In other words, as a result, regional development is possible only by ensuring the sustainable development of the country.*

***Keywords:*** *national economy, concept, sustainable development, regional policy, potential, competition*

## РЕГИОНАЛЬНЫЕ АСПЕКТЫ ОБЕСПЕЧЕНИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО УСТОЙЧИВОГО РАЗВИТИЯ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

**Г.Ф.Керимли**
Мингячевирский государственный университет

***Резюме:*** *В статье объясняется возникновение концепции устойчивого развития в условиях социально-экономического развития национальной экономики и уточняются основные условия обеспечения устойчивого развития в стране. В статье комплексно рассмотрены проблемы устойчивого развития и социально-экономического развития регионов. Анализируя положительное влияние социально-экономического развития регионов*

*страны на обеспечение устойчивого развития, автор обосновал, что безопасность национальной экономики Азербайджана, ее конкурентоспособность и, главное, одно из основных условий обеспечения ее устойчивого развития. Масштабные работы, проводимые в рамках государственных программ, создали прочную основу для устойчивого развития регионов на ближайшие годы.*

*В результате исследования устойчивое развитие национальной экономики представляет собой определенный этап стремительного регионального развития. Иными словами, в результате региональное развитие возможно только при обеспечении устойчивого развития страны.*

***Ключевые слова:*** *национальная экономика, концепция, устойчивое развитие, региональная политика, потенциал, конкуренция*

**Elmi redaktor: i.e.d., dos. M.Gülalıyev**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 14.02.2023**
**Çapa qəbul edilib: 21.02.2023**